# "SAĞ OLSUNLAR, GÖZLƏRİMƏ İŞIQ GƏLDİ"

*Qırmızı kərpiclə inşa edilmiş qədim tikiliyə sığal çəkilib, səliqə-sahman yaradılıb və müxtəlif görmə orqanının patologiyası olan insanların istifadəsinə verilib. Bu səhiyyə ocağı təkcə Gəncədə deyil, qərb bölgəsində 20-ə yaxın şəhər və rayonda yaşayan, göz xəstəliklərindən əziyyət çəkən insanların ümid ünvanıdır.*

## Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi Gəncə Filialı...









2016-cı il mayın 13-dən fəaliyyət göstərən Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin Gəncə Filialında ən müasir diaqnostik avadanlıqlardan istifadə olunması göz xəstəliklərinin diaqnostikası və müalicəsinin keyfiyyətini, gözün müəyyən strukturunda aparılan cərrahi əməliyyatların funksional nəticələrini yüksəltmişdir.

Doqquz ildir fəaliyyətə başlayan filialda görmə qabiliyyətinə xəstəliyin kölgə saldığı, işığa həsrət qalan nə qədər insan şəfa tapıb.

Respublikamızda Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutu 1946-cı ildən fəaliyyət göstərir. 2001-ci ildən isə bu səhiyyə ocağına akademik Zərifə xanım Əliyevanın adı verilmişdir. Bununla da səhiyyə ocağında daha uğurlu elmi fəaliyyətin təməli qoyulmuşdur. Bu da təsadüfi deyildir, böyük alim oftalmologiyanın inkişafına çoxsaylı töhfələr vermişdir. 1977-ci ildə Bakıda yeni Oftalmologiya Mərkəzinin tikintisi təklif də həmin görkəmli alim-oftalmoloqa məxsusdur. Ümumiyyətlə Zərifə xanım Əliyeva nəinki Azərbaycanda, eləcə də MDB məkanında oftalmologiya sahəsinin inkişafına sanballı töhfələr vermişdir.

"Həkim insanlardan özünü ayırmamalı, özünü sevən, laqeyd insan olmamalıdır" - bu sözlər görkəmli alim, mükəmməl həkim, dahi şəxsiyyət, əvəzolunmaz insan akademik Zərifə Əliyevaya məxsusdur. Təsadüfi deyildir ki, bugünkü oftalmologiya elmi məhz onun miras qoyduğu bünövrə əsasında ucalmışdır. 1959-cu ildə "Traxomanın digər terapiya üsulları ilə birgə sintomisinlə müalicəsi" mövzusunda namizədlik və 1976-cı ildə isə Helmholts adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda "Azərbaycanın kimya sənayesinin bəzi müəssisələrinin işçilərində görmə üzvünün vəziyyəti" mövzusunda doktorluq dissertasiyası, habelə çoxsaylı monoqrafiya və elmi məqalələri milli oftalmologiya elminin inkişafına sanballı töhfələr verməklə, həm də gələcək perspektivləri üçün etibarlı bünövrə olmuşdur.

Ümummilli lider Heydər Əliyevin və görkəmli oftalmoloq-alim Zərifə xanım Əliyevanın dəstəyi ilə Milli Oftalmologiya Mərkəzinin təməli hələ sovetlər dönəmində qoyulmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın qayğısı ilə akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi üçün yeni, müasir tələblərə cavab verən bina inşa edilmiş və 22 may 2009-cu ildə son nəsil texniki avadanlıqlarla təchiz edilmiş yeni səhiyyə ocağının açılışı olmuşdur.

İllər keçdikcə bu nəcib təşəbbüs dalğavari yayılaraq respublikamızın bir sıra şəhər və rayonlarında da reallığa çevrilmişdir. 2008-ci ildən Masallı rayonunda, 2016-cı ildən Gəncə şəhərində və 2019-cu ildən Şəki şəhərində Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin beynəlxalq standartlara cavab verən müasir diaqnostik və cərrahi avadanlıqlarla təchiz olunmuş regional filialları fəaliyyətə başlamışdır. Oftalmologiyanın bütün sahələrini əhatə edən filiallarda yüksək ixtisaslı mütəxəssislər yerli əhaliyə müvafiq xidmətlər göstərirlər.

Qlaukoma, katarakta, buynuz qişanın patologiyası, gözün yoluxucu iltihab xəstəlikləri, uşaq və yeniyetmələrdə gözün irsi, refraktiv və digər göz xəstəlikləri, tor qişanın və görmə sinirinin patologiyası, şəkərli diabetin göz fəsadları, gözün zədəsi, onkooftalmoloji xəstəliklər və sair görmə orqanının patologiyaları olan xəstələrə Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin regional filiallarında yüksəkixtisaslı həkimlər tərəfindən hər növ ambulator və cərrahi oftalmoloji xidmət göstərilir. Bu səhiyyə müəssisələrində, həmçinin vitreoretinal, lazer texnologiyaların istifadəsi ilə cərrahi əməliyyatlar həyata keçirilir.




Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin Gəncə filialında da ən müasir diaqnostik avadanlıq və üsullardan istifadə etməklə görmə orqanının anatomik və funksional parametrləri müəyyən olunur. Filialın həkimləri dünyanın qabaqcıl oftalmoloji müəssisələrində aparılan unikal cərrahi əməliyyatları tətbiq edirlər. Bunların sırasına kataraktanın fakoemulsifikasiya zamanı süni büllurun ən müasir növlərinin implantasiyası, qüzehli qişanın zədə nəticəsində yaranmış defektlərin plastikası və digər optik-rekonstruktiv, antiqlaukamatoz cərrahi və oftalmookologiyanı əhatə edən unikal cərrahi əməliyyatlar daxildir. Filialda biokimya, immunoloji, mikrobioloji, avadanlıqlar ilə təchiz olunmuş müasir laboratoriyanın qurulması, nəticəsində görmə orqanının müxtəlif iltihabı və digər xəstəliklərin etimologiyasının müəyyənləşdirilməsi ilə yanaşı, sistem patologiyanın aşkarlanması və müalicənin təyini asanlaşmışdır.

Müəssisədə xəstələrin qeydiyyatı vahid elektron məlumat bazası sistemi əsasında aparılır. Pasiyentlərin vahid elektron qeydiyyatının aparılması tibbi məlumatların elektron formatda arxivləşdirilməsinə, statistik hesabatların tərtibatına və aparılan elmi işlərə də yardımçı olur.

Gəncə filialında şəkərli diabet xəstələrinin göz xəstəliklərinin erkən və dəqiq diaqnostikası, lazer və cərrahi müalicəsi yüksəkixtisaslı mütəxəssislər tərəfindən ən son texnoloji avadanlıqlarla həyata keçirilir. Müasir diaqnostik və cərrahi avadanlığın istifadəsi şüşəvari cismin və tor qişanın müəyyən mənşəli zədələnmələrin sahəsi, dərinliyi və incəliklərin təyin edilməsi, müalicəsi, gözün arxa kəsiyində mürəkkəb cərrahi müdaxilələrin həyata keçirilməsi üçün imkanlar açır.

Filialın mütəxəssisləri dünyanın ən nüfuzlu oftalmoloji ocaqlarında təcrübə keçir, gözün müxtəlif xarakterli patologiyasının müalicəsində yiyələndikləri təcrübəni öz işlərində müvəffəqiyyətlə tətbiq edirlər. Qeyd etmək lazımdır ki, Gəncə filialının fəaliyyəti dövründə ilbəil vitreoretinal cərrahi əməliyyatların sayı artmış, müalicə alan pasiyentlər isə dispanser müşahidəyə alınmışlar.

Filialın əməkdaşları şəhərdəki orta ixtisas və ali məktəblərin tələbələri arasında səyyar müayinələr keçirir və ehtiyacı olan tələbələrə lazımi tibbi yardım göstərirlər. Vaxtaşırı ətraf şəhər və rayonlarda yaşayan əhali arasında elmi oftalmoloji konfranslar, maarifləndirmə tədbirləri təşkil olunur.

44 günlük Vətən müharibəsində cəbhədən gələn yaralılara Gəncə filialında təcili tibbi yardım göstərilmiş, gözün zədəsinin işlənməsi, gözdaxili yad cismin xaric olunması, vitreoretinal və digər cərrahi əməliyyatlar aparılmışdır.

Texnologiyanın ən son nailiyyətləri hesab edilən aparat, cihaz və avadanlıqlarla təchiz edilmiş filialda 30 nəfərə yaxın yüksəkixtisaslı, zəngin təcrübəyə malik tibbi personal xəstələrin sağlamlığı keşiyindədir. `Müəssisədə yüksəkixtisaslı həkimlər çalışırlar. Cərrah oftalmoloq, tibb üzrə fəlsəfə doktoru Qafar Tağıyev Moskvada, Elçin Əsgərov isə Odessada yüksəkixtisaslı təkmilləşdirmə kursu keçiblər. Peşəkar həkimlər tərəfindən xəstələrə, o cümlədən uşaqlara yüksək səviyyəli oftalmoloji yardım göstərilir. Burada 10 mindən artıq cərrahi əməliyyat həyata keçirilib. Ümumilikdə isə 90 minə qədər xəstəyə tibbi yardım göstərilib.

Gəncə filialının həkimləri tərəfindən müalicə olunan xəstələrin ürək sözləri yazılmış xatirə kitabı gözlərə nur paylayan kollektivin işi haqqında aydın təsəvvür yaradır. Xatirə kitabını vərəqlədikcə filialın qayğıkeş həkimlərinin, mehriban kollektivinin xəstələrə göstərdikləri xidmətə verilən yüksək qiymət göz önündə canlanır.

Şəmkir rayonunun Şiştəpə kəndinin sakini Rizvan Nağıyev gözlərinin müalicəsi ilə bağlı filialın həkimlərinin ona göstərdiyi diqqət və qayğı haqqında minnətdarlıq dolu səmimi ürək sözləri yazıb.

Mingəçevir sakini Hicran Kərimovanın ürək sözləri də sonsuz minnətdarlıq hissinin ifadəsidir: "Burada aldığım müalicədən çox razıyam, həkimlərin, bütün kollektivin, hətta xəstəxananın təmizliyinə xidmət edən işçilərin də əməyi ən xoş sözlərə layiqdir".

Samux rayonundan Üzeyir Quliyevin, Gəncə sakinləri Rafiq Ələkbərovun, Rahilə Kərimovanın minnətdarlıq ifadə edən səmimi sözləri də filialın kollektivinin öz işinə vicdanlı münasibətindən xəbər verir.

Dilbazi Quliyevanın ürək sözləri daha təsirlidir. O, Göyçə mahalından Xocalıya köçmək məcburiyyətində qalıb, sonra isə Ağdamda məskunlaşıb. Lakin erməni vəhşiliyi onları köçkünlüyə məruz qoyub. Filialda ona göstərilən xidmətin səviyyəsindən, gözünün yenidən dünya işığına qovuşması üçün həkimlərin göstərdiyi qayğıdan ürəkdolusu yazır və bu diqqətə görə filialın kollektivinə minnətdarlığını ifadə edir.

Xatirə kitabındakı qeydlər filialda çalışan yüksəkixtisaslı həkimlərin, tibb bacılarının və texniki personalın öz vəzifələrinə məsuliyyətli və vicdanlı yanaşdıqlarını, eləcə də burada müalicə alan şəxslərin kollektivə dərin minnətdarlıq hissi bəslədiklərini təsdiqləyir.

**Vaqif TANRIVERDİYEV,**
**"Respublika".**